# 2. YA AĞ OL, YA DA QARA... - TƏKİ RƏNGİN GÖRÜNSÜN

Qulu Məhərrəmlinin sərt üslubu və açıq danışıq tərzi, əslində, özü bir dərs yoludur, öyrənmə yoludur. Sözü nə qədər örtülü, bir az da dırnaqarası desək, abırdan çıxarmamaqla çatdırmaq çox çətindir. Hətta Qulu Məhərrəmli kimi müəllif, yəni sözün haracan desən məna qatlarına enib onu ifadə etmək imkanına malik olan söz ustadı – publisist məcbur olub başlığa belə bir yazı çıxarır: *"İnternet fahişələri və onları yönəldənlər ictimai əxlaqı necə zəhərləyirlər?"* (17.08.2013). Sərlövhə bir qədər uzun və yorucu təsir bağışlaya bilər. Amma əslində Qulu Məhərrəmli internet resurslarında ümumiyyətlə, kiməsə yox, bütün cəmiyyətə qarşı kinini, nifrətini püskürmək üçün fürsət tapanlara etiraz edir. Əslində burada fürsət tapmaq anlamının özü də düzgün deyil. Çünki fürsət axtaran daha çox bəhanəyə güvənir. Növbəti mətbuat hay-küyü və əlbəttə, təkcə mətbuat yox, həm də sosial şəbəkə boyu növbəti hay-küyün sən demə, ünvanı bədii əsər imiş.

Nə vaxtdan bədii əsər konkret cəmiyyət faktı kimi qəbul olunur? Bu yöndən yanaşanda Qulu Məhərrəmlinin münasibəti kifayət qədər aydın olur. Sən demə, bir Azərbaycan rejissoru bir film çəkib. Bu filmdə bir erotik səhnə var. Söhbət erotik səhnənin qəhrəmanından yox, həmin erotik səhnəni oynayan roldan, obrazdan, yəni Vəfa Zeynalovadan gedir. Sadəcə oxucuya informasiya baxımından təminatı üçün Qulu Məhərrəmlinin təqdimatını yerli hesab edirik: *"Bu yaxınlarda məmləkətin internetlə işləyə bilən qismi istedadlı rejissor Yavər Rzayevin çəkdiyi "İlahi məxluq" filminə baxa bildi. Baxmaq deyəndə ki, bir yersiz hay-küyün ardınca gedənlər, hər halda, internet saytlarında maraqlı bir ekran əsərini izləməli oldular. Əslində, bu əsərin cazibədar süjet xətti, dinamik epizdoları və qeyri-standart çəkilişləri azacıq zövqü olan kimsəni o dəqiqə maqnit kimi özünə çəkir. Hələ neçə il əvvəl "Sarı gəlin" bədii filmi ilə öz sənət kredosunu bəyan etmiş Y.Rzayev intellektual bir rejissor kimi bəşəri mövzulara müraciəti, bu mövzuları müasir kino dilində fərqli kontekstdə, həm də fərqli üslub və estetikada təqdim etməsi ilə fərqlənir. Bu baxımdan rejissorun insan və təbiət arasında gedən əbədi mübarizəni parlaq bədii cizgilərlə və inandırıcı süjet əsasında qabardan "İlahi məxluq" filmi də ciddi maraq doğuran ekran əsəridir. Amma indi həmin ekran əsərinin estetik məziyyətləri qalıb bir kənarda, dövriyyəyə tamamilə mənasız bir tezis buraxılıb: niyə aktrisa Vəfa Zeynalova erotik səhnədə çəkilib?".* Necədir, əziz diledant jurnalist? Sənə çox lazımdır ki, kino sənətinin incəlikləri haqqında təsəvvürün olmadan bu psixoloji incəliklərə çöldən-çöldən müdaxilə edəsən və nəticədə Qulu Məhərrəmli kimi sərrast bir söz adamının, görkəmli bilim timsalçısının sözünə hədəf olasan?

Açığı həmin filmə mən də baxmışam. Doğrusu, filmin *"İlahi məxluq"* adını daşıması məndə müəyyən etiraz yaradıb. Ancaq bu o demək deyil ki, mən bütövlükdə rejissorun qoyduğu ideyanın əksinəyəm. Əslində rejissor həqiqətən ilahi məxluqdan çox, ilahi sevginin qarşısıalınmazlığını mətləbə gətirir. Və burada qəribədir ki, film hətta rejissorun istəyinə tabe olmayaraq ilahi sevgidən çox ilahi ehtirasın gücünü göstərir.

Qulu Məhərrəmli dövrün ziyalısı olaraq həm də dünyanın gəldi-gedərindən xəbərdar olan bir sənətşünas olaraq (mən ilk dəfə Qulu Məhərrəmlini burada *"sənətşünas"* adlandırıram, bu qənaətimə əsas verən Qulu Məhərrəmlinin dünya kino mədəniyyəti, rəssamlıq sənətinə xüsusi səriştə ilə yanaşmasıdır. Elə bu yazısında da və digər yazılarında da onun sənətşünas obrazı kifayət qədər öz təsdiqini tapır) "İlahi məxluq" filmi ilə bağlı düşüncələrini təsadüfi olaraq yazıya gətirmir. O hiss edir ki, cəmiyyətdə ümumi inkişafa mane olacaq səviyyədə etirazlar görünür. Bəlkə Elizabet Teylor haqqında Vəfa Zeynalova barədə yazanların heç xəbəri yoxdur. Ümumiyyətlə, əxlaq kateqoriyasını Vəfa Zeynalovaya hücum aspektində qorumaq nə dərəcədə düzgündür? Bax Qulu Məhərrəmli mətbuatın bu yöndə gücünü və yaxud gücsüzlüyünü göstərmək istəyir.

Qulu Məhərrəmli hər hansı bir faktı əlbəttə, cəmiyyətə müəyyən mənada təsir gücündə olan faktı (istər mənfi, istər müsbət istiqamətdə) ictimailəşdirmə gücündə olan jurnalistdir. Əlbəttə, Qulu Məhərrəmli artıq jurnalist şinelindən çoxdan çıxmış qələm adamıdır. O, mənəvi güc etibarı ilə Azərbaycan ziyalısının mövqeyini kifayət qədər özündə ehtiva etmək gücündədir.

Qulu Məhərrəmli sərt sərlövhə ilə (biz bir daha həmin sərlövhəni yazıya gətirmək istəmirik) yazıya gətirdiyi mətləbi ümumdünya müstəvisində oxucu diqqətinə çəkir: *"Həyatın dibinə enmiş bu naqis adamlar üçün şərəfsizliyin hüdudları çox genişdir, təkcə iyrənc cızma-qaralar ifraz etmirlər, həm də internet saytlarında gedən yazı, müsahibə və çıxışlara yalançı adlarla "şərhlər" döşəyirlər. Cəbbəxanaları isə mənəviyyatları qədər kasaddır: söyüş, ittiham və təhqirdən başqa heç nə yoxdur burada. Rusiya, Çin, Kuba kimi ölkələrdə də müəyyən dairələrin yaratdığı belə qruplar var və gerçək media əhli onları "50 sentlik fahişələr ordusu" adlandırır. Bu ordunun muzdlu əsgərləri üçün dünyada müqəddəs heç nə yoxdur, şərəf, ləyaqət, ar-namus da o cümlədən. Onlar yalnız milli əxlaqa düşmən olan ağalarının sifarişlərini yerinə yetirir, aldıqları pulun müqabilində lütfkarlıqla xidmət göstərirlər, əsl fahişələr kimi..."*. Ədəbi publisistikanın imkan verdiyi bütün dil resurlarından istifadə ilə müəllifin məsələyə münasibəti kifayət qədər sərrast və aydındır. Zənnimcə, məsələnin bu səviyyədə şərhi, ən azı, heç olmasa qanan müəlliflər üçün kifayət qədər əsaslıdır.

Heç olmasa, kimsə bundan sonra bilər ki, sənət kimlərinsə nəzərindəki ölçülərlə sərhəd tanımır. Sənət sərhədsizdir. Onun estetik kriteriyaları həyat həqiqətlərinin əks etmə gücünü təyin edir.

Qulu Məhərrəmli bu yazısında nə rejissorun, nə də Vəfa Zeynalovanın müdafiəçisi rolunda çıxış etmir. O, sənətin və sənətin sərhədsizliyini müdafiə edir. Ən başlıcası, xəbərdar edir ki, jurnalistlər və diledant, sənətdən kənar *"sənətşünaslar"* nədən danışdıqlarını və hansı mövzuya müraciət etdiklərini heç olmasa, yarımdünya səviyyəsində dərk etsinlər.

Ümumiyyətlə, Qulu Məhərrəmli publisistik yaradıcılığında bütün mətbuat, tv aləmi və jurnalistika məsələləri ilə bağlı daha çox qlobal, köklü məsələlərə münasibət göstərmək istiqamətində köklənib. Ona görə də onun yazılarında gündəlik daha çox beynimizi didən, düşüncəmizi qıcıqlayan məsələlərə münasibəti axtarmırıq. Ona görə ki, professor sözün həqiqi mənasında daha ciddi məsələlərlə məşğul olur və vaxtının əsas hissəsini müşahidələrə sərf edir. Bu məqamda bir həqiqəti demək nə qədər acınacaqlı olsa da, yerinə düşür. Gör Qulu Məhərrəmli kimi bir mütəxəssis, bir sənətkar, elm, bilgi adamı gündəlik mətbuatı vərəqləməsə, ən azı, onlarca telekanalı izləməsə daha nə qədər dərin yaradıcılıq məsələləri ilə məşğul ola bilər.

Axı Qulu Məhərrəmli kimi bir müəllif, səriştəli publisist, bədii yaradıcılıq imkanına malik olan bir sənətkar nəhayət, öz romanını yazmalıdır. Çox təəssüf ki, həyat bizə öz romanımızı yazmağa imkan vermir.

... Və nəhayət, Qulu Məhərrəmliyə də gündəlik həyatın mənəvi tələbatı öz romanını yazmağa ona vaxt qoymur. Ən azı ona görə ki, axı o belə bir yazı yazmalıdır: *"Bayram oldu, heç bilmədik neyləyək, bu tv-lərin dərdini kimə söyləyək?"* (09.11.2013) – təkcə elə bu başlıq bəs edir ki, onun hansı ictimai-mənəvi əxlaqla, düşüncə ilə yaşadığını təsəvvür edə bilək. Hətta onun bu yazını qələmə aldığı tarixin özü də kifayət qədər informasiya mənbəyidir.

Mətbuatı özünə isti yuva, tv-ləri özünə açılmayan qapılar üçün açar bilən kimsələri bu problemlər hansı səviyyədə düşündürür? Şübhəsiz, Qulu Məhərrəmlini də bu tipli adamlardan ayıran elə onun açıq danışmaq gücüdür. Teleportyoru çiyninə alıb müəyyən qapılara üz tutmaq, hətta ən vicdanlı söz adamının qapısına gedib ondan veriliş hazırlamaq müqabilində təmənna güdmək hansı mənəvi-əxlaqi dəyərlərə sığır?

Bu günlərdə bir məsələ çox yaxşı ictimailəşdi. Hansısa özəl televiziya, yaxud da internet televiziyası şəhid ailələrinə gedir və şəhid haqqında veriliş hazırlamağı bəyan edir. Nəticədə məlum olur ki, pul təmənnası var. Zənnimcə, bu faktı cüzi istisnalarla bütün telekanallara aid etmək olar. Və yenə cüzi istisnalarla az qala yüksək istedadlı telejurnalistlərə də aid etmək olar. Bibarçılıqdır. Abırdan çıxmaqdır. Amma nə üçün? Qoy telejurnalistə, ümuyimiyyətlə, mətbuat adamına hər hansı bir təminatçı elə bir səviyyədə təminat versin ki, onun bu abırsızlığa getməyə ən azı üzü olmasın.

Qulu Məhərrəmlinin bayram oldu deyə tv aləmi ilə bağlı dediklərinin motivini məhz bu düşüncələrlə ümumiləşdirməyi daha üstün bildim. Qulu Məhərrəmli özü həmin yazısının sonuna yaxın bu qeydləri verir: *"TV-lərdə göstərilən əxlaqsız, zoraki və qeyri-adi davranışları tamaşaçılar təqlid edirlərmi? Bu suala ABŞ həbsxanalarında keçirilmiş bu sorğu dəqiq cavab verib. Rəyi soruşulan hər 10 məhbusdan 9-u qeyd edib ki, verilişlər adamlara yeni kriminal hiylələr və ağlagəlməyən davranışlar öyrədə bilər, hər 10 nəfərdən 4-ü isə etiraf edib ki, nə vaxtsa ekranda gördükləri cinayətləri törətməyə cəhd ediblər"*. Zənnimcə, heç bir şərhə ehtiyac yoxdur. Çünki müəllif mətn boyu və nəhayət, nəticədə hər şeyi yetərincə oxucusuna düşüncənin qlobal səviyyəsində, ümumdünya mənəvi mühitinin tələbatı səviyyəsində cavab verir.

*"Medianın ictimai tənqidçi missiyası"* (16.11.2013) – bu yazı mövzu baxımından o qədər orijinal olmasa da, hər halda müəllifin ictimai rahatsızlığının nəticəsi kimi bizi mütləq maraqlandırmalıdır. Axı medianın əsas missiyası elə cəmiyyəti narahat etməkdir. Cəmiyyəti yuxuya getməkdən qorumalıdır.

Bütün bəlaların mənbəyi letargiyadır. Əgər insan yaşadığı mühitə yuxuda olurmuş kimi münasibət göstərirsə, bunun onun əsil yuxuda olmağından hansı fərqi varmış? Məşhur fikir adamı Tomas Ceffersonun *"Mətbuat ictimai rəyi azad ifadə etməyə imkan yaradırsa, ona müqavimət göstərmək mümkün deyil. Onun doğurduğu həyəcanlarla barışmaq lazımdır. Suyun təmiz qalması üçün bu həyəcanlara ehtiyac vardır"* kimi fikrini də Qulu Məhərrəmli öz yazısına təsadüfi olaraq epiqraf gətirmir. Bu yazısında o, müxtəlif iş adamlarını mətn üçün obraza çevirir. Əlbəttə, öz yazısında işini bilən istehsalat adamı Tağı Əhmədovun, Binə Ticarət Mərkəzinin rəhbəri Kəbirə Məmmədovanın və digərlərinin də adını çəkir. Və insafən onların ünvanına sözlə hörmətini də əsirgəmir. Amma təqribən belə bir məsələ üzərində fikir təcrübəsi aparır ki, necə olur insanlar müəyyən qəbildən olan iş adamlarına kəskin münasibət sərgiləyirlər.

Ümumiyyətlə, Qulu Məhərrəmli cəmiyyətdə dəyişkənliyin tərəfdarıdır. O, bu məsələdə təqribən belə bir xalq deyiminə əsaslanır ki, durğun suyun özü də xarab olur. Yəni cəmiyyətdə vaxtaşırı özünü təmizləmə prosesi daha çox dəyişmələrlə bağlıdır. Və nəhayət, müəllif sözünün sonunu belə bir qanadlı, publisistik düşüncələrlə yekunlaşdırır: *"Jurnalistika dünyada yeganə fəaliyyət sahəsidir ki, ondan həqiqəti söyləmək tələb olunur. Həqiqəti üzə çıxarmağın bir yolu da tənqiddən keçir. Bu tənqid nə qədər başağrısı yaratsa belə, cəmiyyətdə mediaya nüfuz qazandırır, onun ələbaxan, asılı və "satqın" olmadığını göstərir. Ona görə də iqtisadi təzyiqlər altında qalmış media qurumunun çox vaxt iki yolu olur: ya "mövcud vəziyyəti ayıq başla, obyektiv şəkildə təhlil edib fəaliyyətində dönüş yaratmalı", ya da tarixi ənənələrə sadiq qalaraq çətin şəraitdə də öz missiyasını davam etdirməlidir..."*. Ayrı-ayrı yazlarda olduğu kimi burada da müəllif jurnalistikanın mənəvi problemlərini daha çox önə çəkir. Ümumiyyətlə, jurnalistika üzrə tanınmış pedaqoq kimi Qulu Məhərrəmli üçün jurnalist fəaliyyəti təkcə yazı qabiliyyəti olmaq, informasiya toplamaq deyil, həm də yüksək mənəvi keyfiyyətdir. Cəmiyyətin əxlaq normalarına sahiblik keyfiyyətidir. Qulu Məhərrəmli doğru düşünür, jurnalist təkcə yazısı ilə, xəbəri yox, həm də mənəvi keyfiyyətləri ilə cəmiyyət üçün güzgü olmalıdır

Professornu bütün dediklərinin ümumi məğzi bundan ibarətdir: ***Ya ağ ol, ya da qara - təki rəngin görünsün.***

***29.09.2021***

***Dövr çətin dövr idi. Hər tərəf öz tərəfdaşlarından o biri tərəfə qəzəb və nifrət tələb edirdi. Qəzəb və nifrəti göstərməyəni isə satqın sayırdılar. Bax, belə ağır rejimdə Qulu necə etmişdi ki, heç bir tərəfdən xəyanətdə suçlanmadan rəsmi təbliğatın kadrı olmuşdu – bunu indi də mən tapammıram. Bu adamın içindəki azadlıq duyğusunu, ləyaqətini qorumasını və bütün bunlarla yanaşı, həm də bütün tərəflərin rəğbətini qazanmasını bu cəmiyyət üçün qeyri-adi hesab edirəm. Bax, bu davranışın səbəbini mən Qulunun sözün bütün mənalarında, qərəzsiz və təmənnasız olması ilə izah edirəm.***

Niyazi MEHDİ, professor